

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 108 (21.009)

10 iyun 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Azərbaycanın özü qədər əbədi*

## Milli dövlətçiliyimizin xilaskarı

*Azərbaycan tarixinin qırx beş illik bir müddəti əhatə edən son dövrü bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu mərhələdəki bütün uğurlarımızın, siyasi, iqtisadi, sosial-mədəni tərəqqimizin təminatçısı Heydər Əliyev siyasətidir.* ***"Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam... Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır",*** *– deyən müdrik rəhbər gənclik illərindən vətənpərvərliyi, qeyri-adi istedadı, geniş erudisiyası, zəngin və hərtərəfli biliyi, dərin analitik təfəkkürü ilə hamıdan seçilmiş, daim canı, qanı qədər sevdiyi doğma Azərbaycanımızın hərtərəfli yüksəlişi üçün fədakarlıqla çalışmış, yaşı min illərlə ölçülən ulu tariximizin ən qüdrətli və misilsiz dahisi, ən parlaq şəxsiyyəti kimi şöhrətlənmişdir.*

1944-cü ildən 1969-cu ilədək Dövlət Təhlükəsizlik orqanlarında işləyən xalqımızın böyük oğlu Heydər Əliyev sovet rejiminin yaratdığı son dərəcə böyük çətinliklərə baxmayaraq, həmişə Azərbaycanın mənafelərini hər şeydən uca tutmuş, bu yolda qətiyyətlə, əzmlə çalışmışdır. 1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbərlik etməyə başlayan dahi şəxsiyyət ölkəmizi qısa müddətdə geniş tərəqqi yoluna çıxarmış, dünyada tanıtdırmışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində misilsiz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçirmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görülmüşdür. 1982-87-ci illərdə daha yüksək vəzifədə – SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini postunda çalışan görkəmli dövlət xadimi Azərbaycanı bir an da unutmamış, bütün imkanlarını, gücünü və bacarığını respublikamızın tərəqqisinə yönəltmişdir. Ulu öndərin Vətən və xalq naminə şərəfli missiyası sonrakı mərhələlərdə də uğurla davam etmişdir.

20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra Naxçıvana gələn xalqımızın böyük oğlu əhali tərəfindən böyük coşqunluqla qarşılanmış, xalq onun timsalında əsl xilaskarını görmüşdür. Həmin vaxt Naxçıvan son dərəcə ağır bir şəraitdə yaşayırdı. Bir tərəfdən iqtisadiyyat dağılaraq iflic olmuş, əhalinin maddi durumu kritik həddə yuvarlanmışdı, siyasi burulğanlar burada da cövlan edirdi. Digər tərəfdən isə bədnam ermənilərin aramsız hücumları ağır situasiyanı daha da mürəkkəbləşdirmişdi. O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibətini də xatırlasaq, muxtar respublikanın çətin durumu göz önünə gələr. Belə bir vaxtda ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı xalqın əsl nicatına çevrildi. ***"Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm",*** – deyən müdrik rəhbər xalqın imdadına çatdı. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda gənclərlə görüşdə ulu öndərin dediyi bu sözlər onun əsas amalını bir daha ifadə edirdi: ***"Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".***

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan və Azərbaycan parlamentlərinə deputat seçilən ulu öndərin 1991-ci ilin 3 sentyabrında muxtar respublikanın rəhbəri seçilməsi doğma diyarımızın tarixi taleyi üçün çox mühüm hadisəyə çevrildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi: ***"Ümumi Azərbaycan evimizin divarından hər gün bir kərpic düşdüyü vaxt Naxçıvan Muxtar Respublikasının əhalisi çox böyük uzaqgörənlik nümunəsi göstərərək Heydər Əliyevi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçdi".***

Ulu öndər Naxçıvana rəhbərlik etdiyi iki ilə yaxın müddətdə elə möhtəşəm işlər gördü ki, onlar mahiyyət və miqyasına görə neçə-neçə əsrlərə örnək ola bilər. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması, keçmiş SSRİ-dən miras qalmış təhlükəsizlik orqanlarının milliləşdirilərək doğma Naxçıvana xidmətə yönləndirilməsi, rus qoşun hissələrinin muxtar respublikadan çıxarılması, doğma diyarımızın müdafiəsi üçün hər cür tədbirlərin görülməsi, o cümlədən Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqət mərkəzinə çəkilməsi, idarəetmə strukturlarında operativliyin və dinamikliyin təmin olunması, sosial ədalətin bərpası, özəlləşdirmənin həyata keçirilməsi, yeni iqtisadi münasibətlərin formalaşdırılması, enerji təminatı sahəsindəki kəskin problemlərin aradan qaldırılması... sadalamadığımız yüzlərlə böyük tədbir məhz bu qısa müddətdə Naxçıvanda reallaşdırılmışdır. Ölkəmizin ən nüfuzlu, qüdrətli, mütəşəkkil, kütləvi siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradılması da ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə aiddir.

1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini elan etmişdir. İstiqlala qovuşmuş xalq ürəkdolusu sevinməyə macal tapmamış ağır problemlər məngənəsinə düşmüşdür. O zaman ölkəyə rəhbərlik edən şəxslərin bacarıqsızlığı ağır nəticələrə gətirib çıxarmışdı. İstər beynəlxalq aləmdə, istərsə də ölkə daxilində vəziyyət gündən-günə pisləşirdi. Dağlıq Qarabağ münaqişəsində Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuş, yüz minlərlə yurddaşımız öz doğma ocaqlarından qaçqın, köçkün vəziyyətinə düşmüşdü. Ölkəmizin haqq işini beynəlxalq təşkilatlarda, dünya miqyasında müdafiə etməli olan ağıllı rəhbərliyin, düşünülmüş siyasətin yoxluğu gənc müstəqil dövlətimizin təklənməsinə gətirib çıxarmışdı. Ölkə daxilində iqtisadi islahatlar aparılmamış, əksər müəssisələr fəaliyyətini dayandırmış, əhalinin maddi durumu böhran vəziyyətinə düşmüşdü. Siyasi arenada hərc-mərclik, başıpozuqluq, nihilizm meyilləri baş qaldırmış, demokratik dəyərlərin təşəkkülü istiqamətində heç bir iş görülməmiş, hakimiyyət korrupsiyalaşmış ünsürlərin əlində oyuncağa çevrilmişdi. Ölkənin ayrı-ayrı regionlarında separatçı, bölücü qüvvələr öz mənfur niyyətlərini gerçəkləşdirmək üçün hərəkətə keçmişdilər. Cənubda qondarma "Talış-Muğan Respublikası", şimalda "Sadval"çıların "Ləzgistan" xülyaları, Qarabağda erməni işğalı, Gəncəbasarda Surət Hüseynovun başçılıq etdiyi silahlı qiyamçıların əməlləri ölkənin ərazi bütövlüyünə, suverenliyinə ciddi təhlükə məngənəsinə çevrilmişdi. Vətənin toxunulmazlığı keşiyində dayanmalı olan ordu isə ayrı-ayrı adamların şəxsi dəstələrinə dönmüşdü... Bəli, cəmisi il yarımlıq istiqlal yaşamış Azərbaycanın 1993-cü ilin yazında durumu belə idi.

Bu cür çətin vəziyyətə salınmış xalq düşdüyü ağır böhrandan xilas yolları arayır, nicat üçün çarpışırdı. Belə bir vaxtda xalq yeganə düzgün, müdrik yolu seçdi – dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi. "Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycanın xilası məhz Heydər Əliyev dühası sayəsində mümkün idi. Həyatının ən böyük mənasını, amalını xalqa xidmətdə görən dahi şəxsiyyət canı, qanı qədər sevdiyi Vətənini, yurddaşlarını taleyin ümidinə buraxıb seyrçi qala bilməz, ona dikilən ümidli baxışları, uzanan əlləri laqeydliklə qarşılamağı bacarmazdı. Çünki O, Heydər Əliyev idi. Vətənini canından çox sevən, Azərbaycanın azadlığı üçün öz həyatını qurban verməyə hazır olan Heydər Əliyev. 1993-cü ilin 9 iyununda xalqın təkidli tələbi ilə ulu öndərimiz Heydər Əliyev Naxçıvandan Bakıya getdi. On minlərlə insan Bakı hava limanına axışaraq öz xilaskarını qarşıladı. İmperiya əsarətindən müstəqilliyə keçid dövrünü yaşayan Azərbaycan üçün Heydər Əliyevin Bakıya gəlişi hamıya həyat eşqi, yaşamaq ruhu bəxş etdi. Bu məqamda ümummilli liderimizin qiymətli sözlərini xatırlamaq yerinə düşər: ***"Keçid dövrünü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adamlar olsunlar".*** Bəli, məhz Heydər Əliyev təcrübəsi, dünyagörüşü Azərbaycanı böhrandan çıxarmağa qadir idi. 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi gerçəkləşdi. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçildi.

Beləliklə, ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdış günü olan 15 iyun Milli Qurtuluş Gününə çevrildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi: ***"Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına – AZƏRBAYCANI AZƏRBAYCANA QAYTARMAQ məramına xidmət edir".***

1993-cü ilin 3 oktyabrında xalqın böyük dəstəyi ilə Prezident seçilən görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi on il müddətində (1993-2003-cü illər) neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər gördü, məramını hamıya çatdırdı: ***"Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".*** Xalqın bu böyük dahiyə bəslədiyi tükənməz ümidlər tezliklə öz bəhrəsini verdi.

***"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır",*** – deyən ulu öndər problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: ***"Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".***



Ulu öndər Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə həyata keçirilməsi ilə səciyyələnir. ***"Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyət – dövlət müstəqilliyimizi biz daima qoruyub saxlayacağıq",*** – deyən ümummilli liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər görmüşdür. Ulu öndər haqlı olaraq qeyd edirdi: ***"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir".*** Bunun üçün möhkəm siyasi iradəyə, böyük təcrübəyə, hüdudsuz Vətən sevgisinə malik şəxsin ölkəyə rəhbərlik etməsi vacib şərtdir. Azərbaycanda belə bir missiyanı məhz Heydər Əliyev həyata keçirmişdir. Ölkədəki hərc-mərclik, anarxiya aradan qaldırılmış, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradılmış, vətəndaş həmrəyliyi bərpa olunmuş, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanılmış, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan kontraktın imzalanması və onun gerçəkləşməsi yolunda görülən nəhəng işlər, ölkəmizin beynəlxalq təşkilatlarda layiqincə təmsil olunması, onun hüquq və mənafelərinin əzmlə qorunması, müstəqil Azərbaycanın hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyasının qəbulu, mənəvi dəyərlərin qorunması, mədəni dirçəlişə böyük qayğı, iqtisadiyyatın əsaslı şəkildə yenidən qurulması, bazar münasibətlərinin tənzimlənməsi, aqrar islahatların uğurla aparılması, Ümumi Daxili Məhsulun ciddi artımı, dünya azərbaycanlılarının həmrəyliyinin formalaşdırılması, xaricdə yaşayan soydaşlarla sıx əlaqələrin təşəkkülü, yeni iş yerlərinin yaradılması, əhalinin maddi rifah halının əsaslı şəkildə yaxşılaşdırılması, bir sözlə, müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, möhtəşəm yüksəlişin baş verməsi dahi rəhbər Heydər Əliyevin qlobal fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir.

***"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır",*** – deyən müdrik rəhbər xalq-dövlət birliyini, vətəndaşların öz dövlətinə tükənməz inamını bərpa etmişdir: ***"Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır".*** Bəli, ulu öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmış, müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi son dərəcə məsuliyyətli və şərəfli bir missiyanı yüksək səviyyədə yerinə yetirmiş, öz sağlığında xalqın qəlbində özünə əbədi bir abidə ucaltmışdır.

***Bu gün müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda ulu öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, hörmətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da böyük tərəqqi yolunda olmaqla əsl intibah dövrünü yaşayır. Blokada şəraitinin yaratdığı çoxsaylı çətinliklərə baxmayaraq, ulu diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən böyük quruculuq proqramı muxtar respublikamızın hərtərəfli inkişafını təmin edir. Bütün bunlar isə ulu öndərin əbədiyaşar təliminin həyati gücünün parlaq təntənəsi, Milli Qurtuluş Gününün bəhrələridir.***


**Hüseyn HƏŞİMLİ**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru***

## "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi "Heydər Əliyev və Azərbaycan" mövzusuna həsr olunmuşdu



*AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın 60-cı məşğələsi "Heydər Əliyev və Azərbaycan" mövzusuna həsr olunmuşdu.*

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev deyib ki, Azərbaycanın müasir tarixinin böyük bir epoxası məhz ümummilli liderin adı ilə bağlıdır və bu epoxada baş verən proseslər o qədər taleyüklü olmuşdur ki, ümummilli liderin adı ilə Azərbaycanın adı sinonimləşmişdir. Təsadüfi deyildir ki, hələ sovetlər dönəmində keçmiş ittifaqın istənilən nöqtəsində Azərbaycan deyəndə "Heydər Əliyevin vətəni" ifadəsi təyinedici ifadə rolunu oynayırdı. Eləcə də müasir dövrdə bütün dünya Azərbaycanı məhz ulu öndər Heydər Əliyevin böyük adı ilə tanıyır. Çünki Azərbaycanın sovetlər dönəmində müttəfiq respublikalar içərisində ön mövqeyə çıxması da, yenidən müstəqil dövlət kimi dünyanın geosiyasi xəritəsinə çıxması da məhz bu fenomenal şəxsiyyətin adı ilə bağlıdır.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə "Heydər Əliyev və Azərbaycan" mövzusunda mühazirə oxumuşdur. Qeyd edilmişdir ki, Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev epoxası bənzərsizdir. Bu epoxanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun da hər bir səhifəsi, hər bir sətri ulu öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin ən böyük xidmətlərindən biri də məhz xalqımızın şərəfli tarixi keçmişini bərpa etməsi, milli-mənəvi irsimizin dəyərlərini özümüzə qaytarması, milli adət-ənənələrimizi yaşatması, Azərbaycançılıq məfkurəsinin və milli ruhun həddsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın real siyasi amilə çevrilməsinə nail olmasıdır. ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub"***, – deyən böyük rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləmişdir. Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarmış, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltmiş, cəmiyyətdə özünəinam hissini bərpa etmiş, ölkəmizdə sabitlik və firavanlığa təminat yaratmışdır.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

## 15 iyun Azərbaycanın xilası günüdür

***Babək Rayon Mərkəzi Xəstəxanasında Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Xəlil Cəfərəliyev açaraq 15 İyun – Milli Qurtuluş Gününün tarixindən söhbət açmışdır. Vurğulamışdır ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş müharibəsinə son qoyulmuş, separatçı qüvvələr zərərsizləşdirilmiş, demokratik dövlət quruculuğu prosesinə başlanmışdır.

Sonra çıxış edən Babək Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əbdülhüseyn Zamanov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizdə müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlərə söykənən milli ideologiya formalaşdırılmış və bu, dövlət quruculuğu prosesinin əsas siyasi xəttinə çevrilmişdir. Bununla yanaşı, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yaranmışdır.

Vurğulanmışdır ki, bu gün dahi rəhbər Heydər Əliyevin quruculuq, inkişaf yolu ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın hər tərəfində olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ulu öndərin siyasi xətti zənginləşdirilərək davam etdirilir, gələcəyimizlə, inkişafımızla bağlı əbədi lider arzuları böyük inamla həyata keçirilir.

Yeni Azərbaycan Partiyası Babək Rayon Mərkəzi Xəstəxanası ərazi ilk partiya təşkilatının sədri Hüseyn İsmayılov, xəstəxananın baş həkiminin müavini Vəliqulu Həsənov ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışının tarixi səbəblərindən danışmış, ümummilli liderin ölkəmizin gələcəyi naminə göstərdiyi xidmətlərdən söhbət açmışlar.

Tədbirə Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Xəlil Cəfərəliyev yekun vurmuşdur.

## Silahlı qüvvələrimizin mənəvi-psixoloji hazırlığı diqqət mərkəzində saxlanılır



***İyunun 9-da Naxçıvan Qarnizonunun Zabitlər Evində "Qoşunlarda şəxsi heyətin mənəvi-psixoloji hazırlıq işinin təşkili" mövzusunda tədbir keçirilib. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin təşkilatçılığı ilə keçirilən tədbiri idarənin rəisi, polkovnik Rüfət Əmirov açıb.***

Tədbirdə adıçəkilən idarənin zabitləri – polkovnik İslam Gəncəliyev, polkovnik-leytenant Nağı Eyvazov, polkovnik-leytenant Habil Talıbov, Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, ölkəmizin bütün sahələr üzrə inkişafı silahlı qüvvələrimizdən də yan keçməyib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində atdığı addımlar silahlı qüvvələrimizi regionun ən güclü ordusu edibdir. Bildirilib ki, həyata keçirilən tədbirlərin bir hissəsi də qoşun birləşmələrində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə təmin olunmasıdır. İndi hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltmək, onlara döyüş ruhunun təlqin olunması üçün hərtərəfli şərait var və hərbi qulluqçularla mənəvi-psixoloji iş müvafiq vəzifələrdə xidmət edən zabitlər tərəfindən həyata keçirilir. Buna görə də aparılan ideoloji məşğələlərin səmərəliliyinin artırılması, bu məşğələlərin keçirilməsində müxtəlif texniki vasitələrdən istifadə edilməsi, həmçinin əsgərlərlə fərdi söhbətlərin təşkili, psixoloji testlərin keçirilməsi qarşıda duran mühüm vəzifələrdəndir.

Qeyd edək ki, psixoloji iş hərbi qulluqçuların hərbi xidmətə çağırıldığı gündən ehtiyata buraxılanadək planlı və davamlı şəkildə həyata keçirilir və şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının artırılması məqsədini daşıyır.

Sonda hərbi hissə komandirlərinin şəxsi heyətlə iş üzrə müavinlərinin, mənəvi-psixoloji hazırlıq üzrə müvafiq vəzifələri yerinə yetirən zabitlərin, klub rəislərinin peşəkarlıq hazırlığını yoxlamaq məqsədilə test keçirilib.

## Sığorta işinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib

***Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr barədə yığıncaq keçirilmişdir. Yığıncağı Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.***



Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusilə əhəmiyyətli olduğunu vurğulamışdır. Baş direktor sığortanın cəmiyyətdəki əhəmiyyətindən bəhs edərək vaxtında sığortalanmağın baş verən bədbəxt hadisələr zamanı faydalarını diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, ötən müddətdə Sədərək rayonunda da bu istiqamətdə müəyyən işlər görülmüş, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayı artmışdır. Çıxışda Sədərək rayonunda sığorta fəaliyyəti sahəsində görülmüş işlər təhlil olunmuş, daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən söhbət açılmışdır. Bununla yanaşı, qeyd olunmuşdur ki, Sədərək rayonunda icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Buna görə də qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığorta olunmalıdır.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov tədbirə yekun vurmuşdur.

## Qeyri-hökumət təşkilatlarının fəaliyyəti: hüquqlar, vəzifələr və məsuliyyət

***Dünən bu mövzuda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində seminar-müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Ədliyyə Nazirliyi ilə birlikdə təşkil etdiyi tədbiri nazirliyin Qeydiyyat və notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimov açıb.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Abil Orucəliyev "Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti institutları kimi" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, müasir dövrümüzdə vətəndaş cəmiyyətinin inkişafı və dəstəklənməsi, ictimai həyatın demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, cəmiyyətdə sabit inkişafın təmini hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biridir. Vətəndaşların birləşmək, dövlətin və cəmiyyətin idarə olunmasında iştirak etmək hüquqları insan hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olmaqla ölkə qanunları ilə müəyyən edilir və təminat altına alınır. Bu hüquqlardan istifadə etməklə vətəndaşların müxtəlif formalarda cəmiyyətin həyatına qatılmaq, ona təsir etmək və təşəbbüslər göstərmək imkanı yaranır.

Qeyd olunub ki, bu gün muxtar respublikamızda bütün sahələrə olduğu kimi, vətəndaş cəmiyyəti institutlarına da xüsusi diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" 16 may 2009-cu il tarixli Fərmanı bunun bariz nümunəsidir. Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin məqsədi vətəndaş cəmiyyəti institutlarının müasirləşdirilməsi, vətəndaş təşəbbüsünün artırılması, milli maraqların qorunması sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların sosial əhəmiyyətli problemlərin həllinə cəlb olunması, həmçinin dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən proqram və layihələrin maliyyələşdirilməsidir.



Sonra Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimovun "Qeyri-hökumət təşkilatlarının fəaliyyətinə nəzarət, vəzifələr və məsuliyyət", nazirliyin Qanunvericilik şöbəsinin müdiri, ədliyyə müşaviri Ayaz Məhərrəmovun "Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin qanunauyğunluğunun təmin edilməsi ilə bağlı qanunvericiliyin tələbləri" mövzularında məruzələri dinlənilib. Məruzələrdə qeyd olunub ki, ölkəmizdə inkişaf etmiş vətəndaş cəmiyyəti təsisatlarının yaradılması, vətəndaş təşəbbüskarlığının sosial xarakterli problemlərin həllində mühüm rol oynaması Heydər Əliyev ideyalarının ardıcıl olaraq həyata keçirilməsinin nəticəsidir. Muxtar respublikamızda da qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərməsi, siyasi, hüquqi və maliyyə baxımından dövlət tərəfindən onlara dəstək verilməsi bu sahənin inkişafına göstərilən diqqətin bariz nümunəsidir.

Bildirilib ki, ölkəmizdə aparılan hüquqi islahatlar çərçivəsində qeyri-hökumət təşkilatlarının fəaliyyəti də qanunvericilik bazası əsasında təkmilləşdirilib. Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2007-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" təsdiq olunub. Həmin konsepsiya qeyri-hökumət təşkilatları ilə bağlı dövlət siyasətinin istiqamətlərini, onlara dövlət dəstəyinin əsas prinsip və formalarını müəyyən edir. Müvafiq qanunvericiliyə görə, qeyri-hökumət təşkilatları mühasibat uçotu aparmalıdır. Onun əmlakı, xərcləri, işçilərin say tərkibi, əməyin ödənilməsi haqqında məlumatlar dövlət və ya kommersiya sirri ola bilməz. Müvafiq qanunvericiliyə edilmiş dəyişikliklər bir daha onu göstərir ki, digər qanunvericilik aktlarında olduğu kimi, qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlarda hüquqlarla yanaşı, vəzifələr də müəyyənləşdirilib ki, bu vəzifələrə də onlar tərəfindən ciddi əməl olunmalıdır.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

# Gözəlləşən ünvanlar

## Şahbuz rayonunda kompleks quruculuq tədbirləri davam etdirilir

***Şahbuz rayonu da muxtar respublikanın digər bölgələri kimi, bu gün inkişaf və tərəqqinin yeni müstəvisinə qədəm qoyub. Son illər bu rayonda həyata keçirilən kompleks quruculuq tədbirləri mövcud problemlərin aradan qaldırılmasını təmin etməklə yanaşı, bölgə sakinlərinin məşğulluq probleminin də həllinə müsbət təsirini göstərib. "Muxtariyyət ili"ndə isə quruculuq tədbirlərinin həcmi bir qədər də artıb. Bu gün bölgənin müxtəlif ünvanlarında geniş vüsətlə diqqəti çəkən kompleks quruculuq tədbirlərini davamlı dövlət qayğısı kimi dəyərləndirən şahbuzluların sevinc hisslərini duymaq çətin deyil.***



Kompleks quruculuq tədbirləri həyata keçirilən ünvanlardan biri Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Xalq şairi Məmməd Arazın doğulub boya-başa çatdığı Nursu kəndidir. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Nəbi Əmişovla həmin obyektlərdə olduq. Öyrəndik ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin bir qrup inşaatçısı kənddə mövcud məktəb binasının yenidən qurulması ilə məşğuldur. Onlar yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərir, keyfiyyət amilini diqqət mərkəzində saxlayırlar. Müasir layihəyə əsasən, binaya idman zalı, iki laboratoriya, iki elektron lövhəli sinif əlavə edilir. 234 şagird yerlik məktəb binasının yenidən qurulmasında yerli inşaat materiallarından istifadəyə üstünlük verilir.

Kənd məktəbinin müəllimi Qəzənfər Məmmədovla elə tikinti gedən obyektin yaxınlığında həmsöhbət oluruq:

– Nursu kəndi qədim tarixə malikdir. Bu yaşayış məntəqəsində fəaliyyət göstərən məktəbi bitirən məzunlar sırasında çoxlu fəlsəfə və elmlər doktorları, müxtəlif peşə sahibləri var. Məktəb binasının yenidən qurulması pedaqoji kollektivin məsuliyyətini daha da artıracaq, kollektiv uzun illər boyunca əldə edilmiş təhsil ənənələrini qoruyub saxlamaqla göstərilən qayğıya əməli işlə cavab verəcək.

Kənddə həm də nursuluların sağlamlığı keşiyində dayanacaq həkim ambulatoriyası üçün yeni binanın inşa edildiyini bildirən kənd sakini, təqaüdçü Mehdixan Əhmədov həmyerliləri adından minnətdarlıq hisslərini dilə gətirdi. İki mərtəbədən ibarət olacaq ambulatoriya binasının yaxınlığında isə daha bir obyektin inşası aparılır. Bu bina isə kənd mərkəzi üçün nəzərdə tutulub. Kənd mərkəzində bu yaşayış məntəqəsində fəaliyyət göstərən təşkilatlar üçün hərtərəfli şərait yaradılacaq. Nursuluların böyük sevincinə səbəb olan yeni obyektlərdən biri də bu yaşayış məntəqəsini doğma Azərbaycanımızın hüdudlarından kənarda belə tanıdan Xalq şairi Məmməd Arazın bir vaxtlar yaşadığı evin sökülüb yenidən inşa olunmasıdır. Burada şairin ev-muzeyi yerləşəcək.





Kənddə inşa olunan obyektlərdən biri isə xidmət mərkəzi üçün nəzərdə tutulub.

Rayonun daha bir ucqar dağ kəndi Gömür quruculuq tədbirləri həyata keçirilən yaşayış məntəqələrindən biridir. Bu kənddə də bir neçə ünvanda yeni obyektlər inşa olunur, məktəb binası yenidən qurulur. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları kənddə xidmət və kənd mərkəzləri üçün yeni binaların inşası və məktəb binasının yenidən qurulması ilə məşğuldurlar. Görülən işlərə kənd camaatının münasibətini öyrənmək üçün bir neçə gömürlü ilə həmsöhbət olduq. Onların dediklərinə görə, bir neçə il əvvəl bu yaşayış məntəqəsində quruculuq tədbirlərinə start verilib. Öz dədə-baba yurdlarından didərgin düşüb buraya üz tutanlara dövlətimiz tərəfindən 19 ev tikilib. Kənd sakini Məmmədəli Ağayev belə qayğı üçün dövlətimizə minnətdarlığını bildirdi.

Bir neçə il əvvəl aparılan kompleks quruculuq tədbirləri hesabına müasir yaşayış məntəqəsinə çevrilmiş Badamlı qəsəbəsində inşası sürətlə davam etdirilən körpü bu yaşayış məntəqəsi sakinlərinə dövlətimizin növbəti qayğısı kimi dəyərləndirilir.

Rayon mərkəzi Şahbuz şəhərində də bir neçə ünvanda quruculuq işi həyata keçirilir. Onlardan biri 216 şagird yerlik Şahbuz şəhər 2 nömrəli tam orta məktəb üçün inşa edilən binadır. Bu tədbir rayonda təhsilin inkişafına göstərilən qayğının parlaq ifadəsidir. Gələcəyimiz olan məktəbəqədəryaşlı uşaqlar da unudulmayıb. Rayon mərkəzinin ən gözəl ünvanlarından birində inşa edilən bağça binası 220 yerlikdir. Qeyd edək ki, Şahbuz şəhərində inşa olunan binalardan biri də Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün nəzərdə tutulub. Bu tədbirləri isə "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları həyata keçirirlər.

Daha bir quruculuq tədbiri isə Şahbuz şəhərinin ən gözəl ünvanlarından biri olan Heydər Əliyev prospektinin genişləndirilməsidir. Bu məqsədlə prospekt boyunca yol kənarları yenidən işlənir, həyətlərə dövlət hesabına hasar çəkilir.

Bəli, bir vaxtlar gözdənuzaq, könüldəniraq olan bu yurd yeri yenidən qurulmaqdadır. Dövlətimizin daimi qayğısı Şahbuzu artıq müasir rayona çevirib. Bu da rayon sakinlərinin doğma yurd yerlərinə bağlılıq hisslərini daha da gücləndirib.

**Muxtar MƏMMƏDOV**

# Əsaslandırılmış pul-kredit siyasəti stabil inkişafın əsasıdır

***İqtisadi həyatda elə hadisələr vardır ki, bəzən verilən bir qərar bütöv bir tarixi dövrü əhatə edə biləcək periodda cəmiyyətdəki iqtisadi münasibətlərə təsir edə, sosial-mədəni inkişafda dərin izlər qoya bilər. Milli iqtisadiyyatın formalaşmasının və ölkənin müstəqilliyinin əsas şərtlərindən biri olan iqtisadi təhlükəsizliyin təmin olunmasında həyata keçirilən pul-kredit siyasətinin də bu baxımdan mühüm əhəmiyyəti vardır. Ölkənin milli maraqlarının qorunması, müstəqil xarici siyasət yeridilməsi üçün onun qızıl-valyuta ehtiyatlarının rolu nə qədər mühümdürsə, ölkə daxilində makroiqtisadi tarazlığın və maliyyə sabitliyinin qorunmasında əsaslandırılmış pul-kredit sistemi də o qədər vacibdir. Çünki iqtisadiyyat o zaman sağlam hesab olunur ki, o, bütün minimum şərtlər daxilində artıma meyilli olur.***

İqtisadiyyatın uğurla idarə edilməsi geniş mənada cəmiyyətin dayanıqlı inkişafı üçün tələb olunan bütün şərtlərin yerinə yetirilməsidir.

Pul-kredit mexanizmi iqtisadiyyatın idarə olunması üçün istifadə edilən ilk metodlardan biri olmuşdur. Pul-kredit tənzimlənməsi istənilən iqtisadi sistemin əsası sayılaraq milli təsərrüfatın idarə olunması baxımından da çox məsuliyyətli proses hesab olunur. Ona görə də ölkənin iqtisadi müstəqilliyini qoruyub saxlaya bilmək və təsərrüfata aid qərarlar qəbul edə bilmək üçün yeridilən siyasət milli maraqlara xidmət etməlidir.

Pulun müxtəlif funksiyaları vardır və onlar xüsusilə bazar iqtisadiyyatında mühüm rol oynayır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar həyata keçirilən pul-kredit siyasəti də ildən-ilə öz məzmun və keyfiyyətinə görə dəyişilməkdədir. Belə ki, əgər ölkəmizdə müstəqilliyin ilk illərində inflyasiyanın azaldılması, büdcə kəsirinin ləğv edilməsi kimi məsələlərin həll olunması gündəmdə olmuşdursa, sonrakı dövrlərdə iqtisadiyyatın möhkəmlənməsi ilə pul-kredit siyasəti istiqamətində artıq yeni keyfiyyət mərhələsi başlanmışdır. Ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın daha da şaxələndirilməsi və müxtəlif istiqamətlərdə sahibkarlıq fəaliyyətinin təşviq edilməsi müasir dövrdə pul-kredit siyasəti sahəsində qarşıya qoyulmuş vəzifələrdəndir. Belə ki, milli iqtisadiyyatın yenidən qurulduğu bir zamanda ölkənin və regionun öz istehsalı olan malların xüsusi çəkisinin yüksək olması çox vacibdir. Buna isə yerli istehsalın təşkili ilə nail olmaq mümkündür. Yeni yaradılan müəssisələrin vəsait çatışmazlığını nəzərə alsaq, onlara göstərilən kredit dəstəyinin nə dərəcədə zəruri olduğunu görmək olar. Beləliklə, yeni biznes subyektlərinin yaradılmasında həmişə özünü göstərən maliyyə problemlərinin aradan qaldırılmasının yeganə yolu bank kreditləridir. Bu prosesdə həm dövlət, həm banklar, həm də kredit alan tərəflər eyni dərəcədə maraqlıdırlar.

2014-cü il ölkəmizdə "Sənaye ili" elan olunmuşdur. Məqsəd Azərbaycanın zəngin ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb olunması və ixracatyönümlü son məhsul istehsalı potensialının artırılmasıdır. Ölkəmizin iqtisadi təhlükəsizliyi məsələsi öz aktuallığını qoruduqca sənayeləşmə yolunda da atılan hər addım öz başlanğıcını yeni yaradılan müəssisələrin və həyata keçirilən yeni layihələrin maliyyələşdirilməsindən alır. Keçən müddət ərzində öz yüksək inkişaf dinamikasına görə ölkəmizdə öncül yerdə olan Naxçıvan Muxtar Respublikası da iqtisadiyyatının struktur tərkibi, əhalisinin artan istehlak qabiliyyəti və malik olduğu yerli xammal və əmək ehtiyatları ilə sənayeləşmə yolunda mühüm irəliləyişlər əldə etmişdir. Belə ki, yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq, hazırda muxtar respublikada 346 növdə məhsul istehsal olunmaqdadır. Bu məhsulların 115 növü ərzaq, 231 növü qeyri-ərzaq məhsullarıdır. 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 332 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Bir zamanlar məlum çətinliklər ucbatından təsərrüfat əlaqələri pozulmuş, nəqliyyat, enerji təminatı kəsilərək iqtisadiyyatı iflic hala düşmüş, demək olar ki, tamamilə idxaldan asılı hala gəlmiş bir regionda aparılan islahatların pərdə arxasında məhz dövlətin yeritdiyi uğurlu pul-kredit siyasətinin dayandığı indi daha aydın görünür. Ötən əsrin 90-cı illərində yalnız pensiya və müavinətlərin, büdcə təşkilatlarında əməkhaqlarının çətinliklə ödənildiyi, inflyasiyanın cilovlanması və ölkədən valyuta axınının qarşısının alınmasında problemlərlə üzləşildiyi bir məqamda real sektordan daha çox bank sektorundakı vəziyyətin sağlamlaşdırılması istiqamətində tədbirlər daha vacib məsələ hesab olunurdu. Həmin ilk dövrlərdə ölkəmizdə siyasi sabitliyin bərqərar olunması və xarici iqtisadi əlaqələrdən ilk valyuta gəlirlərinin əldə olunması sayəsində bank sistemində də zəruri olan stabilliyin təmin edilməsinə və daha sonrakı genişmiqyaslı addımların atılmasına başlanıldı. Və beləliklə, əhalinin məşğulluğunun təmin olunması, torpaq mülkiyyətçilərinə zəruri maliyyə dəstəyinin göstərilməsi, ilk emal müəssisələrinin yaradılması, fəaliyyəti dayanmış müəssisələrin modernləşdirilərək işə salınması, regionun yerli istehsal məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi və xarici bazarlarda möhkəmlənməsi – bütün bunlar muxtar respublikada iqtisadi inkişafın qısa xronologiyası kimi göz önündə canlanır.

Hazırda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 17 bank və bank filialları, 8 bank olmayan kredit təşkilatı tərəfindən muxtar respublika iqtisadiyyatına lazım olan bank xidmətləri göstərilir. Muxtar respublikada makroiqtisadi sabitliyin qorunub saxlanılması, bank sektorunda maliyyə dayanıqlılığının qorunması, maliyyə vasitəçiliyinin genişləndirilməsi, bank-maliyyə sektorunun dərinliyinin və maliyyə resurslarına çıxış imkanlarının artırılması, nağdsız ödənişlərin genişləndirilməsi, elektron ödəniş mexanizmlərinin formalaşdırılması, elektron bank xidmətlərinə çıxış imkanlarının artırılması, ipoteka kreditləri sisteminin inkişaf etdirilməsi, kredit portfelinin keyfiyyətinin qorunması, faiz dərəcələrinin azaldılması istiqamətində mexanizm formalaşdırılması və antiinflyasiya siyasətinin davam etdirilməsi bank təşkilatları qarşısında qoylmuş vəzifələrdəndir. Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatlarına operativ rəhbərliyi həyata keçirməklə onların muxtar respublikanın iqtisadi və sosial inkişafına öz töhfələrini vermələri üçün hər cür təşkilati və metodoloji dəstəyi göstərməkdədir. Muxtar respublikada bank fəaliyyətinin yüksək şəffaflıq və hesabatlılıqla yerinə yetirilməsi, maliyyə intizamına ciddi əməl edilməsi real sektorda həyata keçirilən hər bir işin sağlam bünövrəsini təmin etməklə pul-kredit sisteminə də etibarın günü-gündən möhkəmlənməsinə şərait yaradır. Hazırda muxtar respublikada bank sektorunun inkişafı yüksək iqtisadi aktivliyə paralellik təşkil etməkdədir. Bu, özünü müxtəlif məqsədlərlə verilən kreditlərdə də göstərir. Belə ki, cari ilin ilk beş ayının yekunlarına əsasən, muxtar respublika üzrə 23 milyon 357 min 100 manat kredit verilmiş, 1 iyun 2014- cü il tarixə kredit qoyuluşunun həcmi 92 milyon 16 min 100 manata çatmışdır. Digər sahələrlə yanaşı, bu kreditlərin 31,5 faizi sənaye məhsulu istehsalının, 34,1 faizi kənd təsərrüfatı və emal sahələrinin, 8,4 faizi inşaat işlərinin, 7,8 faizi ticarət və xidmət sahələrinin genişləndirilməsinə yönəldilmiş, 12,2 faizi ev təsərrüfatlarının istehlak tələbatlarının ödənilməsi, 4,2 faizi ipoteka məqsədilə istifadə edilmişdir.

Muxtar respublikada ödəniş əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması üçün görülən tədbirlər də öz bəhrəsini verməkdədir. Cari ilin ilk beş ayı ərzində 352 ədəd POS-terminal quraşdırılmış və bu göstərici 1 iyun 2014-cü il tarixə 600 ədədə çatmışdır. POS-terminallardan geniş istifadə vəsaitlərin dövriyyəsinin sürətləndirilməsinə, nağd pulların daşınması, saxlanması və təsərrüfat əməliyyatları xərclərinin azaldılmasına müsbət təsir göstərməkdədir. Muxtar respublikada bir sıra biznes sahələri, xüsusən kənd təsərrüfatı sahəsi üzrə verilən kreditlərin faiz dərəcələrinin endirilməsi hazırda qarşıya qoyulmuş məsələlər sırasındadır. Həyata keçirilən tədbirlər muxtar respublikada sahibkarların kiçik maliyyə resurslarına olan tələbatlarının ödənilməsinə stimul verəcəkdir.

**Əli CABBAROV**

# Bir gün Ağbulaq İstirahət Mərkəzində

## *Burada məhdud fiziki imkanlı uşaqların mənalı istirahəti üçün hər cür şərait yaradılıb*

***Ağbulaq İstirahət Mərkəzinə gedəcəyimi, burada dövlət hesabına dincələn məhdud fiziki imkanlı uşaqlar və onların valideynləri ilə görüşəcəyimi biləndə yadıma sovet dönəmində muxtar respublikanın füsunkar yaşayış məntəqələrinin bir neçəsində təşkil edilmiş pioner düşərgələri düşdü. Düzünü etiraf edək ki, o zaman belə ünvanlarda, əsasən, imkanlı valideynlərin övladları dincəlirdilər. Bu müqayisəni aparmaqda məqsədim dünənlə bu gün arasındakı fərqi ortaya qoymaqdır. Yəni dünən imkanlı valideynin övladı belə imtiyazdan istifadə edirdisə, bu gün məhdud fiziki imkanlı uşaqlar bu imtiyazdan, qayğıdan yararlanırlar. Bu da onu göstərir ki, muxtar diyarımızda bu qəbildən olan uşaqlar dövlətimizin daim himayəsindədirlər. Onların problemlərinə həssaslıqla yanaşılır, müalicələri qeydinə qalınır, cəmiyyətə inteqrasiya olunmaları üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bütün bunlar isə məhdud fiziki imkanlı uşaqların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayır.***



Redaksiyadan Ağbulağa yola düşərkən bu düşüncələr içərisində idim.

Şahbuz rayonunun ən ucqar və ən füsunkar yaşayış məntəqəsi olan Ağbulağa gedən yol bu gün ən müasir standartlar səviyyəsindədir. Son illər yol kənarlarında əkilmiş meşə və meyvə ağacları, yamaclarda gözoxşayan çiçəklər insana mənəvi rahatlıq bəxş edir. Düşünürsən ki, belə yerdə "hər kim yüz il yaşamasa, günah onun özündədir".

Avtomobil dolayı yollarla irəlilədikcə mənzərələr daha da zənginləşir, bizi öz ovsununa alır. Şahbuz-Batabat avtomobil yolundan sağa dönürük. Gözəllikləri qələmə almaq üçün söz axtarıram. Etiraf edim ki, çətinlik çəkirəm. Şair istəyir ki, bu gözəlliklərə şeir qoşsun, bəstəkar sorağındadır ki, nəğmə bəstələsin, rəssamın da ən gözəl tablosunun mövzusudur bu mənzərələr.

Məlumat üçün bildirim ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə 47 sağlamlıq imkanları məhdud məktəbli uşaq Ağbulaq İstirahət Mərkəzində istirahət edir. Onlarla yanaşı, burada 17 valideyn də dincəlir. Uşaqlara nəzarət etmək üçün Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 3 müəllim ayrılıb. Uşaqların istirahətinin mənalı təşkili üçün tədbirlər planı tərtib olunub. İlk tədbir iyunun 5-də keçirilib. "Çərpələng" yarışında qaliblərə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin fəxri fərmanları verilib. Bizim mərkəzdə olduğumuz gün də qələbəlik idi. Belə ki, fiziki imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edirdi.

Mərkəzdə müxtəlif idman yarışları təşkil olunur, uşaqlar gəzintiyə aparılır, intellektual oyunlar keçirilir. Bu da sağlamlıq imkanları məhdud məktəbli uşaqların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayan amillərdən biridir.

Sözügedən ünvanda bir neçə valideyn və uşaqla həmsöhbət olduq. Naxçıvan şəhərindən nənəsi Vüsalla gəlmiş təqaüdçü Rəfael Sadıqov bildirdi ki, ikinci dəfədir, mərkəzdə istirahət edirlər. Burada yaradılmış yüksək şəraitdən razılıq edən həmsöhbətim minnətdarlıq hisslərini dilə gətirdi, dövlətimizin sağlamlıq imkanları məhdud məktəbli uşaqlara belə qayğısının onu xeyli riqqətə gətirdiyini vurğuladı.

Söhbətə qoşulan Şahbuz rayonunun Badamlı kənd tam orta məktəbinin müəllimi Firuz Zeynalov bildirdi ki, buraya nəvəsi Səidlə gəlib. Belə tədbirin reallaşmasını Firuz müəllim muxtar respublikada insan amilinə göstərilən yüksək qayğı kimi dəyərləndirdi:

– Sosial-iqtisadi inkişafımız sürətləndikcə insanların yaşam tərzi də xeyli yaxşılaşır. Elə dövlətimizin belə uşaqlara böyük qayğısının ifadəsi olan bu tədbir də muxtar respublikada təmin olunmuş sosial-iqtisadi inkişafın bəhrəsidir. Bir neçə gündür ki, burada dincələn uşaqların sevincini gördükcə özüm də cavanlaşıram sanki. Belə qayğı üçün sağlamlıq imkanları məhdud uşaqların valideynləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımı bildirirəm.

Bəyim Kərimova Ordubad rayonunun Çənnəb kəndindən gəlib. Oğlu Hilalla birgə istirahət edir. Bəyim xanım da burada gördüklərindən razılıq etdi. Övladı və digər uşaqlar üçün yaradılmış şəraiti yüksək dəyərləndirdi.

Culfa rayonunun Camaldın kənd tam orta məktəbinin birinci sinif şagirdi Turan Həsənov burada onunla birgə mənalı istirahət edən yoldaşlarının fikirlərini dilə gətirdi.

Beləcə, kimlə həmsöhbət olduq, hamısı ağızdolusu razılıq hisslərini bildirdi. Bu gözəl ünvandan, düzünü deyim ki, ayrılmağımız gəlmirdi. Düşünürdüm ki, üç tərəfdən yaşıllığa bürünmüş dağlarla əhatə olunan Ağbulaq İstirahət Mərkəzinin bu gün qoynuna aldığı sağlamlıq imkanları məhdud uşaqlara, onların valideynlərinə bağışladığı təəssüratlar, yəqin ki, bu insanların yaddaşlarından uzun müddət silinməyəcək, dövlətimizin qayğısı hər zaman onları əhatə edəcək.

✍ **M.MƏMMƏDOV**

# Yüksəkixtisaslı heyət Naxçıvanda növbəti açıq ürək əməliyyatları aparmışdır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə razılaşdırılmış tədbirlər planına uyğun olaraq, muxtar respublikamızın 90 illiyi münasibətilə tədbirlərin keçirilməsi davam etdirilir.***

Artıq yubiley çərçivəsində bir sıra işlər görülmüş, humanitar aksiyalar təşkil olunmuşdur. Birgə səylər, nəticə etibarilə, əhalinin sağlamlığının qorunmasına böyük fayda verir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadalarının hər il olduğu kimi, "Muxtariyyət ili"ndə də muxtar respublikamıza gəlməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicə işinin daha da yaxşılaşmasına şərait yaradır. Təkcə bu ilin may ayında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Kardiocərrahiyyə Mərkəzinin 8 nəfərlik heyəti tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 12 nəfərdə açıq ürək əməliyyatı, 1 nəfərdə periferik damar əməliyyatı həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Mərkəzi Neftçilər Xəstəxanası Ürək-Damar Xəstəlikləri Mərkəzinin yüksəkixtisaslı heyəti iyunun 7-də yenidən (bu il üçüncü dəfə olaraq) Naxçıvana gəlmişdir. Ürək-Damar Xəstəlikləri Mərkəzinin müdiri, ürək və damar cərrahı Rəşad Mahmudovun, ürək və damar cərrahları Seymur Musayevin, Kənan Məmmədovun, anestezioloqların, əməliyyat, reanimasiya, palata tibb bacılarının təmsil olunduğu heyət son 3 gün ərzində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əvvəlcədən qeydiyyata götürülmüş 9 kardioloji xəstədə açıq ürək əməliyyatları aparmış və risk faktorlu xəstələri müxtəlif kardioloji müayinələrdən keçirmişdir. Kardioloji ambulator müayinə və müalicələr zamanı xəstələrə tibbi məsləhət və tövsiyələr verilmişdir.

Həkim briqadası açıq ürək əməliyyatları ilə yanaşı, xəstələrdə müşahidə olunan gizli ürək xəstəlikləri və onların risk amillərini araşdırmış, ürək xəstəliyi aşkarlanan xəstələrin sonrakı müayinə və müalicələrini diqqət mərkəzində saxlamışdır.

Aksiya çərçivəsində yerli həkimlər bütün cərrahi əməliyyatlarda iştirak etmişlər.

# "Endokrinologiyanın aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilmişdir

***Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında Bakı şəhərindəki Endokrinoloji Mərkəzin və Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin birgə "Endokrinologiyanın aktual problemləri" mövzusunda elmi-praktik konfransı keçirilmişdir.***

Muxtar respublikanın 90 illiyinə həsr olunmuş konfransı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov açaraq bu gün inkişaf edən dünya səhiyyə sisteminin müasir nailiyyətlərinin öyrənilməsində, ondan faydalanmaqda belə konfransların mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş, vətəndaşların sağlamlığının qorunması istiqamətində muxtar respublika rəhbərinin dəstəyi sayəsində son illər görülən işlərdən danışmışdır.

Bakı şəhərindəki Endokrinoloji Mərkəzin direktoru Rauf Cabbarov "Şəkərli diabet və onun müalicə prinsipləri" mövzusunda çıxış edərək bildirmişdir ki, şəkərli diabet endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən biridir. Hazırda dünyada 250 milyondan çox şəkərli diabet xəstəsi var. Hər il qeydə alınan ölüm hallarının 5 faizi şəkərli diabet nəticəsində baş verir. Odur ki, bu xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir.

Sonra Bakı şəhərindəki Endokrinoloji Mərkəzin həkim-endokrinoloqları Zərifə Əliyeva "Diabetik neyropatiyanın diaqnostikası və müasir müalicə prinsipləri", Ülviyyə Əliyeva "Diabetik nevropatiyanın diaqnostikası və müasir müalicə prinsipləri" mövzularında məruzələr etmişlər. Məruzələrdə şəkərli diabetin tipləri, risk faktorları, diaqnostikası, dərman vasitələrinin seçilməsi və müalicə işinin təşkilində müasir üsullar barədə məlumat verilmişdir.

Muxtar respublika endokrinoloqları, terapevtləri, nevroloqları, cərrah və ginekoloqlarının iştirak etdiyi konfransda müzakirələr aparılmış, suallar cavablandırılmış, tədbir iştirakçılarına kitabça və bülletenlər paylanmışdır.

Bakıdan gələn yüksəkixtisaslı həkimlər Endokrinoloji Dispanserin endokrinoloqları ilə birgə bölgələrdə konsultativ söhbətlər, səhiyyə maarifi işi aparmış, Şahbuz rayonunda 49, Ordubad rayonunda isə 45 nəfər bu qəbildən olan xəstəyə baxış keçirmiş, onlara tibbi məsləhətlər vermişlər.

# Orta tibb işçilərinin növbəti sertifikasiya test imtahanında 23 nəfər zəruri həddi keçə bilmədi

Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə işçilərinin sertifikasiya prosesi davam etdirilir. Məlum olduğu kimi, "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyası"nın aparılmasına 2011-ci ilin sentyabr ayından başlanmış, təkcə keçən il 187 nəfər həkim sertifikasiya imtahanında iştirak etmiş, onlardan 177 nəfəri test imtahanlarını və müsahibə mərhələsini başa vurmuşdur.

Növbəti test imtahanında isə Şərur Rayon Mərkəzi Xəstəxanasının, rayon kənd həkim ambulatoriya və feldşer-mama məntəqələrinin 52 orta tibb işçisi öz bilik və bacarıqlarını sınamışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

Test imtahanının yekunlarına görə, 23 tibb bacısı zəruri həddi keçə bilməmişdir. Onlar növbəti 6 ay ərzində yenidən öz biliklərini sınamalı olacaqlar. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Hansı hallarda notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azad olmalar tətbiq edilir?*

**Cavab:** "Dövlət rüsumu haqqında" Qanunun 11-ci maddəsinə əsasən, notariat hərəkətlərinin aparılmasına görə doğumu, ölümü, övladlığa götürülməyi və atalığı (analığı) təsdiqləyən sənədləri almaq üçün, təminatlı kreditorun iştirakçısı olduğu girov müqaviləsi ilə bağlı notariat hərəkətləri aparılarkən dövlət rüsumu tutulmuşdursa, həmin müqavilədən irəli gələn borc öhdəliklərinin təmin edilməsi üçün iflas prosesi zamanı təminatlı kreditor ilə əmlak inzibatçısı arasında bağlanmış saziş ilə əlaqədar notariat hərəkətləri üzrə – təminatlı kreditor və əmlak inzibatçısı, mənzil və ya ev (evin bir hissəsi) alğı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə – birinci qrup işləməyən əlillər, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər, qaçqınlar və məcburi köçkünlər, mülki-hüquqi əqdlərin bağlanması zamanı, habelə mənzil (fərdi ev) alınması və ya dəyişdirilməsi əqdləri ilə bağlı notariat hərəkətləri üzrə – "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər və qəyyumluqda (himayədə) olan uşaqlar, pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə dövlət rüsumu ödənilmir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

***Allah rəhmət eləsin***

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun böyük elmi işçisi Abbas İsmayılova, atası
**HACI İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları institutun böyük elmi işçisi Abbas İsmayılova, atası
**HACI İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı və dekan müavini Şəmil Mahmudov Tariyel Talıbova, əzizi
**ƏRUS XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 506**